# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib**




3

# Azərbaycan-Türkiyə: bir yumruq, bir ürək, bir can!




2

SƏS
№ 030 (7440)
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
17 aprel 2026-cı il.
Qiymәti 1 manat

# Ermənistanda seçki gərginliyi artır



5

**Oyunlar günahkardırmı? - məktəb qətliamlarının görünməyən səbəbləri**



4

**Qanunsuz nikahların artması hansı hüquqi risklər yaradır?**



8

**Terrorçu uşaqlar erası başladı**



4

## Yaşıllığa sitəm v(b)loqu



7

## Rusiya Azərbaycanı itirmək istəmir...



3




# Azərbaycan-Türkiyə: bir yumruq, bir ürək, bir can!

*Prezident İlham ƏLİYEV: "Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur"*

***Beynəlxalq birliyin ən fəal üzvlərindən olan Azərbaycan regionda və dünyada mehriban qonşuluq siyasəti yürüdərək, böyük dövlətlərlə, nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığı daha da möhkəmləndirir. Azərbaycan beynəlxalq aləmdə sülhsevər, demokratik prinsiplərin inkişafına xüsusi önəm verən, irimiqyaslı infrastruktur layihələrin reallaşdırılmasında zəngin təcrübəsi olan bir ölkə kimi tanınır.***

Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Əlbəttə ki, Azərbaycan-Türkiyə əlaqələri sarsılmaz dostluq və qardaşlığa söykənir, uğurla davam etdirilir. Əsrlər boyu Azərbaycan və Türkiyə həmişə bir-birinə dəstək olmuş, sıx əməkdaşlıq etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfərə gəlib.

Qeyd edək ki, Antalya Diplomatiya Forumu dünya ölkələrinin diqqətini çəkən ciddi beynəlxalq platformadır. Dünyanın müxtəlif sınaqlardan keçdiyi indiki dövrdə qlobal diplomatiyada da yeni yanaşmalara və qətiyyətli addımlara addımlara ehtiyac duyulur. Planetin hər yerində baş verən qlobal hadisələr problemlərin diplomatiya yolu ilə həll edilməsinin vacibliyini önə çəkir. Hər il ənənə halını almış dünyanın önəmli siyasi liderlərinin, beyin mərkəzlərinin rəhbərlərinin və önəmli diskussiya qruplarının maraq göstərdiyi bir forumdur.

Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir. Əlbəttə ki, son illərdə Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qədər yüksəlməsi mövcud əlaqələrin möhkəmliyinə, sarsılmazlığına əsaslanır. Mövcud münasibətlərin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Əlbəttə ki, Türkiyə-Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri dostluq və qardaşlığa söykənən Azərbaycan-Türkiyə münasibətlərinin bu gün daha yüksək bir mərhələdə olduğunu göstərir.

## AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNDƏ KEYFİYYƏTCƏ YENİ DÖVR

Regionda yaşanan hadisələr Türkiyə və Azərbaycanın rolunu və önəmini bir daha artırıb. Beynəlxalq aləmdə böyük nüfuz sahibi olan Türkiyə-Azərbaycan birliyi sarsılmazdır. Azərbaycan Prezidenti çıxışlarının birində belə demişdir: "İftixar hissi ilə qeyd etmək istərdim ki, dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur". Türkiyə-Azərbaycan əlaqələrini ən yüksək müttəfiqlik səviyyəsinə qaldıran Şuşa Bəyannaməsi əhəmiyyətli rola malikdir. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu: "Şuşa Bəyannaməsi ilə müttəfiqlik zirvəsinə ucalmış əlaqələrimizin həyatın bütün sahələrində, istər siyasət, iqtisadiyyat, enerji, nəqliyyat, mədəniyyət, təhsil, hərbi və digər sahələrdə özünü göstərməsi bizi çox sevindirir. Əminəm ki, "Bir millət iki dövlət" şüarını rəhbər tutan ölkələrimiz arasında müttəfiqlik münasibətləri birgə səylərimizlə bundan sonra da yüksələn xətlə və uğurla inkişaf etməyə davam edəcəkdir", - deyə Prezident bildirib. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə, eləcə də Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanır. Əminliklə bildirək ki, Azərbaycanla Türkiyə arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivləri, o cümlədən, tərəflərin siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsi münasibətlərin inkişafında əhəmiyyət kəsb edir. Təbii ki, Bəyannamədə diqqətimizi çəkən məqamlardan biri də hərbi əməkdaşlıq və milli təhlükəsizlik ilə bağlıdır. Sözügedən Sənəd bir daha Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını nümayiş etdirdi. Belə ki, Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi kimi məsələlər də yer alıb. Bəyannamə Azərbaycan-Türkiyə arasında əməkdaşlığı gücləndirməklə, türk dövlətləri arasında əməkdaşlığın daha da genişləndirilməsində əhəmiyyət kəsb edir.

## "BİZ DÜNYA MİQYASINDA, DÜNYA ÇAPINDA NADİR ƏMƏKDAŞLIQ, İŞ BİRLİYİ, MÜTTƏFİQLİK NÜMUNƏSİ GÖSTƏRİRİK"

Siyasi həmrəylik möhkəmləndikcə, qardaş ölkələrin müxtəlif platformalarda, o cümlədən bir sıra beynəlxalq təşkilatlarda üst-üstə düşən mövqedə çıxışları əməkdaşlığın yeni bağlarla daha da güclənməsini şərtləndirir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan strateji tərəfdaş olaraq, regional və qlobal səviyyədə mühüm əhəmiyyət kəsb edirlər. Bu əlaqələr, həmçinin Türk dünyası çərçivəsində birliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində bir model kimi çıxış edir. Ölkələrimiz arasındakı iqtisadi əlaqələr, xüsusilə enerji sahəsindəki əməkdaşlıq daha da güclənib. Birgə əməkdaşlıq şəraitində reallaşdırılan qlobal layihələr isə iki qardaş ölkənin gücünü daha da artırır. İğdır-Naxçıvan qaz kəmərinin istifadəyə verilməsi isə Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinin növbəti ifadəsidir. Türk coğrafiyası üçün mühüm əhəmiyyət daşıyan Naxçıvanın enerji təhlükəsizliyinin təmin edilməsi baxımından bu kəmər xüsusi önəm kəsb edir. İki dost və qardaş ölkələrin prezidentləri İğdır-Naxçıvan qaz kəmərinin istismara verilməsi mərasimində çıxışları zamanı mühüm mesajlar verdilər. Bu kəmər muxtar respublikanın təbii qaz təminatını tam qarşılayacaq və bir mənbədən asılılığını aradan qaldırmaq baxımından mühüm rol oynayacaq.

İki ölkə arasında ticarət əlaqələri, enerji və nəqliyyat sahələrində əməkdaşlıq diqqəti çəkəndir. Azərbaycan enerji ixracatı sahəsində Türkiyə vasitəsilə Avropaya açılan yeni yollar əldə edib, bu da hər iki ölkə üçün strateji baxımdan əhəmiyyətli olub. Ölkələrimiz arasındakı iqtisadi əlaqələr, xüsusilə enerji sahəsindəki əməkdaşlıqla daha da güclənib. Azərbaycan Cənubi Qafqazın ən böyük enerji təchizatçısı olaraq Türkiyə vasitəsilə Avropaya enerji tədarükü edir. Bu sahədəki əməkdaşlıq xüsusilə 2006-cı ildə istifadəyə verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri ilə dərinləşib. Bu layihələr yalnız iqtisadi deyil, həm də siyasi və strateji əhəmiyyətə malikdir, çünki Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır.

2020-ci ildən tam fəaliyyətə başlayan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) layihəsi də Azərbaycanın qazını Türkiyə vasitəsilə Avropaya ixrac etmək üçün mühüm bir imkan yaradıb. TANAP Cənubi Qafqazı Avropa bazarına bağlayan əsas enerji layihələrindən biridir və bu, yalnız iki ölkə arasındakı iqtisadi əlaqələri möhkəmləndirmir, həm də Azərbaycanın enerji ehtiyatlarını Avropaya çıxarmaq üçün geniş imkanlar təqdim edir. Bu layihələr, həm də Azərbaycanın və Türkiyənin regional enerji təhlükəsizliyini təmin etməsinə və Avropa bazarları ilə daha sıx əlaqə qurmasına şərait yaradır. Ölkələrimizin hərbi sahədəki əməkdaşlığı da hər zaman böyük önəm daşıyıb. Azərbaycanın müdafiə qabiliyyətinin artırılması istiqamətində Türkiyənin verdiyi dəstək, xüsusilə hərbi təlimlər və silah tədarükü sahələrində davam edir. Həmçinin hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir və regional təhlükəsizlik məsələlərində ortaq maraqlara malikdir. 2020-ci ildə İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanı siyasi və hərbi baxımdan dəstəkləməsi, bu əlaqələrin daha da möhkəmlənməsinə gətirib çıxarıb.

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Bizi birləşdirən bir çox amillər var, ilk növbədə, tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız, xalqlarımızın qardaşlığı bu birliyi təmin edib. Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk".

Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Biz Azərbaycanın yanındayıq. Hadisələrə müdaxilə edənlər öndə bizi görəcəklər!", - söyləyən Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan əsl qardaşlıq nümunəsi göstərdi. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə Ermənistan-Azərbaycan münaqişəsinin həlli işində daim Azərbaycana böyük dəstək göstərdi. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda Cənab Prezidentimiz İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri altında ən yüksək səviyyədə davam etməkdədir.

Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır. Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilib. Hazırda milli maraqlara və müasir çağırışlara əsaslanan birgə fəaliyyət və ortaq təşəbbüslər ölkələrə inkişaf, regiona isə firavanlıq və sabitlik vəd edir. Türk dünyası üçün parlaq perspektivlər yaradır. Bütün bu reallıqlar Azərbaycan-Türkiyə birliyinin sarsılmaz olduğunu bir daha təsdiqləyir. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır".

***Nəzakət ƏLƏDDİNQIZI***

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Esvatini Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sibusisive Mnqomezulunu qəbul edib.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Kolumbiya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Nelsi Rakel Munar Xaramiyonu qəbul edib.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdinur Dahir Fidounu qəbul edib.






# Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib





Aprelin 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin birgə təşəbbüsü ilə partiya üzvləri üçün Çin dili kursunun açılış mərasimi keçirilib.

Tədbirdə Çin səfirliyinin nümayəndələri, Azərbaycan Dillər Universitetinin nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun təmsilçiləri, partiyanın Gənclər Birliyinin üzvləri, Mərkəzi Aparatın və yerli təşkilatların əməkdaşları iştirak ediblər.

Tədbirdən öncə YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib. Səfir Lu Mey regionda yaranmış hərbi münaqişə fonunda Çin vətəndaşlarının İrandan təxliyəsində göstərilmiş yüksək dəstəyə görə Azərbaycan tərəfinə, şəxsən Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib, bunu ölkələrimiz arasında dostluq münasibətlərinin növbəti təzahürü kimi qiymətləndirib. Görüşdə YAP ilə Çin Kommunist Partiyası arasında imzalanan Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib, nəzərdə tutulan tədbirlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sonra Çin mədəniyyətinin ayrılmaz hissəsi olan qədim çay ənənəsi və xəttatlıq sənəti nümayiş olunub.

Tədbirdə çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Çin dili kurslarının Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin mahiyyətinə uyğun olaraq təşkil edildiyini diqqətə çatdırıb.

YAP Sədrinin müavini qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində müstəqil, konstruktiv və prinsipial siyasəti ilə seçilən Azərbaycan ilə Çin arasında əməkdaşlıq qarşılıqlı etimada əsaslanır və dövlət başçılarının siyasi iradəsi sayəsində ildən-ilə daha da möhkəmlənir. Onun sözlərinə görə, qlobal xarakterli yeni təhlükəsizlik çağırışlarının meydana çıxdığı və geosiyasi transformasiyaların baş verdiyi bir dövrdə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin davamlı inkişafı milli maraqların təmini baxımından müstəsna önəm daşıyır: “Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat”dan irəli gələrək çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyət həyata keçirilir. Bu xüsusda elm, təhsil, humanitar və mədəni sahələrdə gerçəkləşdirilən təşəbbüslər fəal siyasi dialoq şəraitində xalqlarımız arasında qarşılıqlı anlaşmaya əsaslanan dostluğun daha da möhkəmlənməsinə xidmət edir. Bu prosesdə dövlətlərarası münasibətlərin önəmli tərkib hissəsi kimi iki ölkənin hakim partiyaları – Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əməkdaşlıq əlaqələrinin mühüm rolu vardır”.

Tahir Budaqov bildirib ki, 2024-cü ilin noyabrın 13-də partiyalarımız arasında imzalanmış Əməkdaşlıq memorandumundan irəli gələrək məqsədyönlü tədbirlər uğurla davam etdirilir: “Yeni Azərbaycan Partiyasının üzvləri üçün Çin dili kursunun təşkili də mədəni-humanitar əlaqələrin gücləndirilməsi və dostluq körpülərinin genişləndirilməsi istiqamətində atılan növbəti mühüm addımdır. Bu, partiya fəallarının kommunikasiya imkanlarının artırılması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin intensivləşməsi xüsusunda olduqca önəmlidir”.

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, süni intellekt texnologiyalarının sürətli inkişafı, rəqəmsallaşmanın həyatın, demək olar ki, bütün sahələrinə nüfuz etməsi qlobal miqyasda yeni çağırışlar meydana çıxarıb: “Bu kontekstdə texnoloji tərəqqinin aparıcı mərkəzlərindən olan Çin Xalq Respublikasının dünya iqtisadiyyatında və sivilizasiyalararası dialoq prosesində güclənən mövqeyi Çin dilinin beynəlxalq ünsiyyət vasitəsi kimi əhəmiyyətini daha da artırır. Ona görə də bu dilin öyrənilməsi qlobal iqtisadi proseslərə daha yaxından inteqrasiya olunmağa, biznes əlaqələri, investisiya mühiti və texnoloji tərəfdaşlıq sahələrində layihələrin səmərəli icrasına əlverişli zəmin yaradır. Xüsusilə, gənc nəslin, o cümlədən partiya fəallarının bu istiqamətdə biliklərinin artırılması onların beynəlxalq platformalarda aktiv təmsil olunmasına, müasir çağırışlara adekvat olaraq ölkəmizin maraqlarını effektiv şəkildə müdafiə etməsinə xidmət göstərir. Fürsətdən istifadə edərək, bu təşəbbüsün həyata keçirilməsinə verdiyi dəstəyə görə Çin Xalq Respublikasının ölkəmizdəki Səfirliyinə, şəxsən səfir Lu Meyə təşəkkürümü bildirir və bütün iştirakçılara uğurlar arzulayıram. Əminəm ki, gələcəyə hesablanmış bu önəmli təşəbbüs əməkdaşlıq imkanlarını genişləndirməklə bir çox müştərək hədəflərin reallaşmasına təkan verəcək, partiyalar və ölkələrarası münasibətlərin davamlı inkişafına xidmət göstərəcəkdir”.






Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey iki ölkənin liderləri tərəfindən həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Çin-Azərbaycan münasibətlərinin hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini qeyd edib. O bildirib ki, Çin Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası əldə olunmuş razılaşmalara uyğun qarşılıqlı fəaliyyəti uğurla davam etdirirlər: “Partiya və dövlət idarəçiliyi sahəsində fəal təcrübə mübadiləsi aparılır ki, bu da ikitərəfli əməkdaşlığın müxtəlif sahələrdə inkişafına mühüm töhfə verir”.

Azərbaycanda Çin dilinə marağın artdığını söyləyən səfir bildirib: “Mən Çin dilini sərbəst bilən bir çox azərbaycanlı dostlarla görüşmüşəm. Bir çox gənc Çin mahnılarını böyük ustalıqla ifa edir və ənənəvi Çin incəsənətini mənimsəyir. Eyni zamanda, Çinin universitetləri və analitik mərkəzləri də Azərbaycanla bağlı tədqiqatları fəal şəkildə davam etdirirlər. 2025-ci ildə 60 mindən çox Çin vətəndaşı Azərbaycana səfər etmişdir. Bu faktlar iki xalq arasında dostluğun və sivilizasiyalararası dialoqun inkişafına sadiqliyin bariz nümunəsidir. Ümid edirik ki, Çin dilini öyrənən partiya üzvləri nəsillər arasında dostluğun möhkəmlənməsinə və ikitərəfli əməkdaşlığın bütün sahələrdə inkişafına töhfələr verəcəklər. Çinin Azərbaycandakı Səfirliyi bundan sonra da bütün zəruri şəraiti yaratmağa davam edəcəkdir”.

Səfir Yeni Azərbaycan Partiyasının üzvləri üçün təşkil olunan kursun Çini daha yaxından tanımaq imkanı yaradacağını əlavə edib. Daha sonra Konfutsi İnstitutunun tələbələri tərəfindən Çin milli rəqsi və ifalar təqdim olunub. Tədbirdən sonra Çin dili kursunun ilk dərsi keçirilib.

## Rusiya Azərbaycanı itirmək istəmir...

*Mətləb Salahov: “Birgə bəyanat və kompensasiya məsələsində razılığın əldə olunması ikitərəfli münasibətlərin gələcəyi baxımından önəmli hadisədir”*



“Azərbaycan və Rusiya Xarici İşlər Nazirliklərinin 25 dekabr 2024-cü il tarixində Rusiya hava məkanında baş vermiş insident nəticəsində Azərbaycan Hava Yolları (AZAL) şirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması ilə bağlı kompensasiya məsələsi üzrə mühüm razılıq əldə olunması barədə birgə bəyanatları ikitərəfli münasibətlər üçün dönüş nöqtəsi olacaq. Çünki uzun müddətdir ki, Bakı və Moskva arasındakı münasibətlərdə məhz bu məsələ ilə bağlı ciddi soyuqluq yaranmışdı. Qarşı tərəfin nəhayət ki, bu məsələdə gözlənilən addımı atması zəngin tarixi əlaqələrə malik iki ölkə arasında aktiv əlaqələrin yaranmasına zəmin yaradır. Məncə Kremldə gözəl anlayırlar ki, region üçün son dərəcə əhəmiyyətli dövlət sayılan Azərbaycanla əlaqələri bərpa etmək ilk əvvəl Rusiyanın öz geopolitik maraqları üçün çox vacibdir”.

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, qəzanın baş verdiyi ilk gündən etibarən rəsmi Bakının prinsipial mövqeyi bu məsələnin sonrakı həlli üçün önəmli fakt olub. M.Salahov qeyd edib ki, təyyarə qəzası nəticəsində həlak olan və yaralanan insanların yaxınları üçün məsələnin obyektiv şəkildə təhqiq edilməsi və ədalətli qərar qəbul olunması olduqca böyük önəm daşıyır. “Təyyarə qəzasının səbəblərinin tam və obyektiv şəkildə araşdırılması və ictimaiyyətə məlumat verilməsi, təqsirli tərəfin məsuliyyətinin birmənalı müəyyən edilməsi, zərərçəkmişlərə ədalətli və adekvat kompensasiyanın ödənilməsi əsas şərtlər kimi müəyyən edilib. Bu, birmənalı olaraq belədir. Məsələnin hazırkı həll variantı isə başlıca olaraq münasibətlərin sabitləşməsi və tarixi əlaqələrə sahib iki ölkənin problemləri geridə qoyması deməkdir.”

***Afət Tahirqızı***



# Oyunlar günahkardırmı? - məktəb qətliamlarının görünməyən səbəbləri

***Türkiyədə ard-arda baş verən məktəb hücumları cəmiyyətdə ciddi narahatlıq yaradıb. Qısa müddət ərzində bir neçə məktəbdə silahlı hücum baş verməsi bu hadisələrin artıq təkcə kriminal yox, həm də sosial-psixoloji problem olduğunu göstərir. Baş verən hadisələrdə azyaşlı və yeniyetmələrin məktəbdə silahla hücum etməsi, hətta bir neçə nəfərin həyatına son qoyması diqqət çəkir. Bu hücumların bəzilərində silahların ailə üzvlərinə məxsus olması, motivlərin isə tam aydın olmaması vəziyyəti daha da mürəkkəbləşdirir.***

Bu kimi hadisələr fonunda əsas suallar ortaya çıxır:

**Bu davranışın arxasında nə dayanır?**

**Zərərli oyunlar və sosial şəbəkələr bu prosesdə nə qədər rol oynayır?**

**Qarşısını almaq üçün nə etməliyik?**

SİA mövzu ilə bağlı araşdırma edib.

Hadisələrin arxa planı: tək səbəb yoxdur

Araşdırmalar göstərir ki, məktəb hücumları adətən bir neçə faktorun birləşməsi nəticəsində baş verir:

-Psixoloji problemlər (depressiya, aqressiya)

-Sosial təcrid (ünsiyyətin azalması)

-Ailə nəzarətinin zəif olması

-Rəqəmsal mühitdə radikallaşma

-Silaha çıxış imkanının olması

Məsələn, Türkiyədə son hadisələrdə hücum edən şəxslərin bəzisinin sosial mediada aktiv olduğu, bəzən isə əvvəlcədən mesajlar paylaşdığı qeyd olunur.

## Zərərli oyunlar: təsiri varmı?

Bu mövzu çox mübahisəlidir. Sadə dillə desək, oyunlar təkbaşına insanı qatil etmir, amma risk faktorunu artıra bilər. Araşdırmalar göstərir ki, rəqəmsal oyunlara həddindən artıq bağlılıq aqressiya ilə əlaqəli ola bilər. Uzun müddət oyun oynayan uşaqlarda sosial təcrid və emosional problemlər artır və bəzi oyunlar zorakılığı normallaşdıra bilər. Digər tərəfdən hər oyun oynayan uşaq aqressiv olmur. Əsas problem nəzarətsiz və uzunmüddətli istifadədir

Sosial şəbəkələrin "görünməyən" təhlükəsi

Sosial media bu prosesdə daha ciddi rol oynayır.

**Əsas risklər:**

1. "Copycat effekti" (təkrarlama sindromu)

Araşdırmalar göstərir ki, məktəb hücumları sosial mediada yayıldıqca yeni hücum ehtimalı artır

## Zorakılığın romantikləşdirilməsi

Bəzi platformalarda hücum edənlər "qəhrəman" kimi təqdim olunur

**Radikallaşma və gizli qruplar**

Oyun platformaları və Discord kimi yerlərdə yeniyetmələr radikal ideologiyalara cəlb edilə bilir

**Reallıqdan qopma**

-Virtual həyat real həyatı əvəz edir

-Empatiya zəifləyir

**Sosial medianın "kirli tərəfi"**

Sosial şəbəkələrin təhlükəli tərəfləri açıq görünməsə də, təsiri dərin olur:

-Zorakılıq və nifrət kontentlərinin yayılması

-Anonimlik, məsuliyyətsizlik

-Uşaqların manipulyasiyaya açıq olması

-Psixoloji təsir (təzyiq, müqayisə, tənhalıq)

-Qapalı qruplarda təhlükəli ideyaların yayılması

Ekspertlər qeyd edir ki, yeniyetmələr xüsusilə bu təsirlərə daha həssasdır və nəzarətsiz istifadə aqressiyanı artırır.

## Qarşısını almaq üçün nə etməliyik?

Bu problemi yalnız bir tərəf həll edə bilməz. Ailə, məktəb və dövlət birlikdə işləməlidir.

**Ailə səviyyəsində:**

-Uşağın telefon və oyun vaxtına limit qoymaq

-Onun izlədiyi kontentə nəzarət etmək

-Psixoloji vəziyyətini izləmək

-Açıq ünsiyyət qurmaq

**Məktəb səviyyəsində:**

-Psixoloqların aktiv iştirakı

-Aqressiv davranışların erkən aşkarlanması

-Antibulinq proqramları

**Dövlət səviyyəsində:**

-Silaha çıxışın daha ciddi nəzarəti

-Rəqəmsal platformalara nəzarətin gücləndirilməsi

-Maarifləndirici kampaniyalar

Texnoloji səviyyədə:

-Sosial platformalarda təhlükəli kontentin filtrasiya edilməsi

-Yaş məhdudiyyətlərinin real tətbiqi

Türkiyədə baş verən məktəb qətliamları bir daha göstərdi ki, bu problem təkcə bir ölkəyə aid deyil, bu, qlobal təhlükədir. Zərərli oyunlar və sosial şəbəkələr bu prosesdə rol oynasa da, əsas məsələ onların nəzarətsiz və yanlış istifadəsidir. Ən vacib məsələ isə budur: problemi hadisə baş verdikdən sonra yox, ondan əvvəl görmək və qarşısını almaq.

***Ayşən Vəli***

ARAŞDIRMA



Elçin Bayramlı

# Terrorçu uşaqlar erası başladı

***Son vaxtlar müxtəlif ölkələrdə uşaqlar və yeniyetmələr tərəfindən törədilən ağır cinayət və intihar hallarının sayı artır. Bu günlərdə Türkiyədə baş verən hadisələr də göstərdi ki, bu sahədə vəziyyət faciəvi həddə gəlib çatıb. Məktəbdə odlu silahla terror törədərək bir neçə nəfəri qətlə yetirən şagirdlərin davamlı olaraq PUBG oyunu oynadıqları təsbit olunub.***

Çox təəssüf ki, son dövrlərin ən təhlükəli tendensiyalarından biri də budur. Müasir multfilmlər, kompüter oyunları, mafiya serialları, zombi filmləri- bunlar uşaqların psixologiyasını məhv edir və onları vəhşiləşdirir. 20 ildən çoxdur ki, bu barədə danışırıq, yazırıq, həyəcan təbili çalırıq, lakin faciəvi faktlara baxmayaraq heç kim narahat olmur.

Xüsusən, müasir virtual oyunlar çox təhlükəlidir. Uşaqlar fərqinə varmadan bu oyunlarda məqsədə nail olmaq üçün adam öldürür, qan tökür, şəhərləri dağıdır, hər cür vəhşilik törədirlər. Bu, psixoloji narkomaniyadır. Bu kimi oyunlar elə proqramlaşdırılır ki, alqoritmlərlə uşaqları daimi asılı vəziyyətdə saxlayır. Növbəti mərhələlər, maraqlı proseslər uşaqları daim oyunda saxlamaq üçün təşkil olunub. Beləcə, uşaqların psixologiyasını tamamilə mənfi istiqamətdə formalaşdırır, eyni zamanda gözlərini zədələyir, real ünsiyyətdən uzaqlaşdırır. Bu, tərbiyəni pozur, dərslərdən, fiziki fəaliyyətlərdən, idmandan uzaqlaşdırır. Qısaca desək, bu oyunlar və sistemlər insanları zombiyə çevirmək üçün uşaqlıqdan tətbiq olunan xüsusi proqramlardır.

Artıq bir çox ölkələrdə bunun fərqinə varıblar və buna qarşı mübarizə aparılır. Bəzi ölkələrdə 18 yaşa qədər şəxslərin sosial şəbəkələrə girişi tamamilə qadağan edilib, internetdə məhdudiyyətlər tətbiq olunub. Bir çox ölkələrdə zərərli oyunlar dövriyyədən çıxarılıb. Yalnız müsbət ruhlu, öyrədici, inkişaf etdirici, konstruktor və intellektual oyunlardan istifadə edilə bilər. Onların da zaman məhdudiyyəti olmalıdır. Çox təəssüf ki, bizim cəmiyyətdə bu məsələyə yanaşma sıfır səviyyəsindədir. Heç kim buna ciddi münasibət göstərmir.

Valideynlər öz azyaşlı uşaqlarına yekə smartfonlar alıb verir və onları psixotron terror yuvası olan qorxunc virtual məkanın caynağına atırlar, öz rahatlıqları üçün uşaqları saatlarla, günlərlə kompüter və televizor qarşısında buraxırlar. Nəticə ortadadır: uşaqların psixologiyası və sağlamlığı pozulur, tərbiyəsi, təhsilə marağı, insanlarla ünsiyyəti və mədəni səviyyəsi zəifləyir. Bu, məktəblərdə, evlərdə, həyatda açıq görünür. Uşaq kriminalı, intiharı artır.

Elmi olaraq sübut olunub ki, uşaqlar üçün nəzərdə tutulmuş oyunlar, multfilmlər və videomateriallar subliminal mesajlarla doludur. Bu, məqsədli şəkildə insanların psixologiyasını dəyişdirmək və yönləndirmək üçün tətbiq edilir. Sosioloji tədqiqatlar bunu da təsdiqləyir. Prosesin nəticəsi açıqdır və yaxın 5-10 ildə faciəli vəziyyət yarana bilər. Bu səbəbdən də hesab edirəm ki, bununla bağlı xüsusi bir təşkilat və ya dövlət orqanı yaradılmalı, məsələyə ciddi nəzarət tətbiq olunmalıdır. Qadağalar və məhdudiyyətlər qoyulmalıdır.

Azərbaycan Konstitusiyasında və qanunlarda açıq göstərilir ki, uşaqların mənəvi, psixi və fiziki sağlamlığına zərər vuran fəaliyyətlər aradan qaldırılmalıdır. Valideynlər bunun təminatçısıdır, əgər yerinə yetirmirlərsə, sərt şəkildə məsuliyyətə cəlb olunmalıdır. Öz uşağını məqsədli şəkildə məhv etməyə çalışan valideyn gələcək cəmiyyətə terrorçu, cinayətkar, qatil yetişdirir.

Cəmiyyətin bu məsələdə iştirakı sıfır səviyyəsindədir. Ümid yalnız dövlətə qalır. Dövlət tərəfindən son vaxtlar bu istiqamətdə ciddi işlər görülür: televiziyadakı verilişlərin nəzarət altına alınması, zərərli yayımların dayandırılması, sosial şəbəkələrdə məhdudiyyətlər və bəzi şəxslərin məsuliyyətə cəlb olunması. Bunlar təqdirəlayiq addımlardır, lakin kifayət deyil, daha ciddi nəzarət olmalıdır. Əks halda, biz təhlükəli bir gələcək gözləyirik.

Dünyada aparılan sosial tədqiqatlar, kriminal statistika göstərir ki, uşaq kriminalı artır, uşaqlar aqressivləşir, intiharlar və qətillər çoxalır. Bu, həm psixoloji, həm də fiziki problemlər yaradır. Həkimlər də bunu təsdiqləyir. Bu qədər böyük təhlükənin qarşısında təəssüf ki, ciddi yanaşma yoxdur. Mən inanıram ki, Azərbaycan dövləti sağlam cəmiyyətin qurulması üçün fəaliyyətini artıracaq. Daha ciddi tədbirlər görülməlidir: həm evlərdə, həm məktəblərdə uşaqların mənəvi və fiziki sağlamlığı qorunmalıdır. İnternet məkanı üzərində texniki üsullarla zərərli kontentlərin bloklanması, kompüter klublarındakı oyunların analizi və zərərli oyunların dövriyyədən çıxarılması vacibdir. Kriminal serialların və aqressiv multfilmlərin yayımı qadağan edilməlidir. Bu kimi üsullar bir çox ölkələrdə artıq tətbiq olunur və bizdə də buna ehtiyac var. Bu, mütləq zərurətdir. Biz onsuz da artıq gecikmişik, amma bu gün tədbir görməsək, yaxın gələcəkdə çox təhlükəli vəziyyətlə üzləşəcəyik.

# “Azərbaycanda dövlət siyasətinin ideoloji əsasları: gələcəyə baxış”



***Aprelin 15-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının və YAP Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Azərbaycanda dövlət siyasətinin ideoloji əsasları: gələcəyə baxış” mövzusunda tədbir keçirilib. Əvvəlcə YAP Suraxanı rayon təşkilatının inzibati binasında Ulu Öndər Heydər Əliyevin büstü ziyarət olunaraq önünə gül dəstələri düzülüb.***

Tədbirdə Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı, YAP Veteranlar Şurasının üzvü Fidumə Hüseynova, Milli Məclisin deputatı Sevinc Fətəliyeva və YAP Suraxanı rayon təşkilatının gənc üzvü Şahnaz Heybətova çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Azərbaycan Konstitusiyası dövlətçilik ideologiyasının əsaslarını özündə ehtiva edir. Xüsusilə, ölkədə dövlət siyasətinin ideoloji əsasları demokratik ənənələr, milli həmrəylik, davamlı iqtisadi inkişaf və insan amilinə əsaslanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs müasir çağırışlara adekvat cavab verən, suverenliyimizi möhkəmləndirən və innovativ inkişafı hədəfləyən gələcəyə baxış modelini formalaşdırır. Azərbaycançılıq ideologiyası isə xalqımızın birlik və həmrəylik nümayiş etdirməsində müstəsna əhəmiyyət kəsb edir.



Qeyd edilib ki, müasir Azərbaycanın ideoloji təməli Ümummilli Liderin siyasi irsinə və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən strateji kursa əsaslanır. Milli maraqların təmin olunması, müstəqil xarici siyasətin həyata keçirilməsi, ərazi bütövlüyünün və suverenliyin qorunması dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Gələcəyə baxış kontekstində də dövlətimizin ideoloji əsasları strateji əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə perspektiv baxımından şaxələndirilmiş, rəqabətqabiliyyətli və innovasiyayönümlü iqtisadiyyat formalaşdırılıb.

Vurğulanıb ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə Cənubi Qafqaz regionunda yeni reallıqlar yaradıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işləri həyata keçirilir, Böyük Qayıdış Proqramı uğurla icra olunur və regionda sülhün təmin olunması istiqamətində ardıcıl siyasət aparılır. Bütün bunlar Azərbaycanın beynəlxalq müstəvidə mövqeyinin daha da güclənməsinə töhfə verir. Diqqətə çatdırılıb ki, güclü ideoloji əsaslara söykənən dövlət siyasəti Azərbaycanın gələcəkdə də möhtəşəm nailiyyətlər qazanmasını şərtləndirir. Yeni Azərbaycan Partiyasının da hər zaman cəmiyyətdə ideoloji iş apararaq dövlət siyasətinə fəal dəstək verdiyi xüsusi vurğulanıb.

Tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Daha sonra Suraxanı rayonunun ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə fərqlənən bir qrup şəxsə fəxri fərman və hədiyyələr, YAP sıralarına yeni qəbul olunmuş üzvlərə isə partiya vəsiqələri təqdim edilib. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Ermənistanda seçki gərginliyi artır

***Bu gün regional siyasətdə Ermənistanda iyun ayında keçiriləcək parlament seçkiləri və ona hazırlıq önəmli mövzular sırasındadır. Paşinyanın Moskvaya səfəri, Kremldə Putinlə görüşü və hər iki tərəfin bir-birinə seçki mesajları mübadilə etmələri iyun ayının ilk həftəsində İrəvanda siyasi temperaturun hansı həddə olacağından xəbər verir. İkinci Qarabağ müharibəsindən sonra ilk dəfə rəsmi Moskva İrəvana qarşı açıq kartla oynadı, seçkilərdə rusiyapərəstlərin iştirakına münbit şərait yaradılmasını baş nazirdən yarımtələb edən Putin əks təqdirdə Ermənistanı nələr gözlədiyinə dair proqnoz verməkdən də çəkinmədi.***

Bəs İrəvanda və ölkənin başqa bölgələrində seçkilərə hazırlığın hansı mərhələdə olduğunu söyləmək olar. Vətəndaş Müqaviləsi Partiyası 7 iyunda keçiriləcək parlament seçkilərində iştirak etmək üçün Ermənistan Mərkəzi Seçki Komissiyasına sənədlər təqdim edib. Sənədləri MSK-ya Baş nazirin aparat rəhbəri və Vətəndaş Müqaviləsi Partiyası İdarə Heyətinin üzvü Araik Harutyunyan, eləcə də Vətəndaş Müqaviləsi fraksiyasından olan deputatlar Vaaqn Aleksanyan və Arusyak Culhakyan təqdim ediblər. Jurnalistlərə verdiyi müsahibədə Araik Harutyunyan MSK-ya 233 namizədin məlumatlarını daxil etdiyini qeyd edib. ”Biz artıq bütün sənədləri elektron şəkildə yükləmişik və bu gün prosedura uyğun olaraq kağız versiyalarını da təqdim etdik. Xüsusilə vurğulamaq istərdim ki, proses açıq idi və siz də müəyyən dərəcədə iştirak etdiniz. Siyahını ötən ilin sonunda tərtib etməyə başladıq və demokratik sistemlərə xas olan bütün mümkün vasitələrdən istifadə edərək tətbiq etdik”, - deyə Harutyunyan qeyd edib.

Arayik Harutyunyan hansı siyasi qüvvələri əsas rəqib hesab etdikləri soruşulduqda, onların hamısına eyni münasibət göstərdiklərini bildirib. ”Düzünü desəm, biz bütün siyasi qüvvələrə hörmət və diqqətlə yanaşırıq. Lazım gəldikdə və siyasi proseslərdən asılı olaraq, birinə daha çox diqqət yetirib digərinə az diqqət yetiririk, amma hamısını rəqib hesab edirik”, - deyə Harutyunyan əlavə edib.

Rəqabət mühiti pozulurmu?

Seçki Məcəlləsi seçkilərdən bir ay əvvəl başlayan rəsmi seçki kampaniyası prosesi üçün qaydalar müəyyən edir. Lakin seçkilərdən sonrakı gündən etibarən hər bir partiya və siyasi xadim seçki kampaniyası çərçivəsində fəaliyyət göstərə bilər. Məlumata görə, Ermənistan Baş nazirinin aparat rəhbəri və Vətəndaş Müqaviləsi partiyasının seçki qərargahının rəhbəri Arayik Harutyunyan jurnalistlərin Vətəndaş Müqaviləsi partiyasının rəqabət mühiti yaradıb-yaratmadığı ilə bağlı suallarına cavab olaraq bunu bildirib.



## *Müxalifətin təxribat ssenarisi ifşa olunur*

”Yəni, seçkilərdən sonrakı gün, 8 iyundan etibarən növbəti seçkilər üçün seçki kampaniyası keçirilə bilər. Qanun yalnız kampaniyanın özündə bərabər şərtlər müəyyən edir ki, böyük siyasi qüvvələr kiçik qüvvələrlə eyni məhdud resurslara malik olsunlar.

Paşinyan: ”Yeni Konstitusiya qəbul edilmədən ”

Məhkəmə sistemindəki bəzi problemlər yeni Konstitusiya qəbul edilmədən sadəcə həll edilə bilməz. Baş nazir Nikol Paşinyan bunu 16 apreldə Milli Məclisin iclasında Ermənistan Respublikası Hökumətinin 2025-ci il üçün 2021-2026-cı illər proqramının icrasının gedişi və nəticələri barədə hesabat təqdim edərkən bildirib. ”Hesab edirəm ki, məhkəmə sisteminin problemlərinin əhəmiyyətli bir hissəsi yeni Konstitusiya qəbul edilmədən həll edilə bilməz, çünki bu ətalətlə durğunluq vəziyyəti davam edəcək. Buna görə də, bu süni qabığı atıb həqiqətlə üzləşməyə imkan verən konstitusiya normalarına ehtiyac var”, - Paşinyan bildirib. Müxalifətin arqumenti isə fərqlidir. Onlar düşünürlər ki, “Paşinyanın bu məsələ ilə bağlı nə deməsinin əhəmiyyəti yoxdur. Əsas olan Kremlin nəyə inanmasıdır”.

Bəs, reallıq nədir?

Nikol Paşinyan iddia edir ki, Ermənistan müxalifəti ölkəni və xalqını ”dağıdıcı macəraya” sürükləməyə çalışır. O, bunu çərşənbə günü parlamentdəki çıxışında bildirib. ”Bu gün qüvvələr Qarabağı və ətraf bölgələri təsvir edən xəritələr, eləcə də bunu simvolizə edən bayraqlar təqdim edirlər. Bu məntiqin inkişafı qaçılmaz bir müharibədir”, - deyə o bildirib. Onun fikrincə, müxalifətin hərəkətləri Ermənistanı və xalqını dağıdıcı bir macəraya sürükləməyə çalışır: ”Məhz buna görə insanlar sülh üçün ayağa qalxmalıdırlar, çünki bu, onların dünyasıdır və ona qarşı hər hansı bir təcavüz fəlakətə bərabərdir”. Paşinyan əvvəllər Ermənistan müxalifətinin parlament seçkilərində qalib gələcəyi təqdirdə qaçılmaz olaraq Azərbaycanla müharibəyə səbəb olacaq şüarlarla iştirak etdiyini bildirmişdi.

Paşinyan Azərbaycanın əzəli və əbədi torpağına - Qarabağa ”artsax” deməyə belə cəsarət etmir. Ümumiyyətlə, o, qonşu dövlətlə müharibədən əvvəl özünü təhrik etdiyindən tamamilə fərqli davranır. Erməni mətbuatı artıq illərdir yazır ki, Paşinyanın ”Qarabağ Ermənistandır, nöqtə” elan etməklə müharibəni faktiki olaraq qızışdırıb. Və onun buna qarşı heç bir arqumenti yoxdur. Çünki həqiqətə qarşı heç bir arqument yoxdur. Amma başqa, eyni dərəcədə əhəmiyyətli bir təhlükə var. Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev Avropa ölkələrini Ukraynaya etdikləri yardımla bağlı açıq şəkildə təhdid etməyə başlayıb. Bundan əvvəl Rusiya Müdafiə Nazirliyinin bəzi Avropa ölkələrinin Ukraynaya pilotsuz təyyarə təchizatını artırmaq planlarının ”gözlənilməz nəticələrə və hərbi-siyasi vəziyyətin kəskin şəkildə gərginləşməsinə səbəb olacağı” barədə açıqlaması olub. Nazirliyin məlumatına görə, Ukrayna şirkətlərinin filiallarının Böyük Britaniya, Almaniya, Danimarka, Latviya, Litva, Hollandiya, Polşa və Çexiyada yerləşdiyi iddia edilir. Rusiya Müdafiə Nazirliyi Ukrayna üçün silah istehsal etdiyi iddia edilən Avropa şirkətlərinin ünvanlarını dərc edib və ”nəticələr” ilə hədələməyə başlayıb. İndi isə Paşinyan bütün dünyanı yer üzündən silməyə hazır olan bu qaniçən imperiyaya qarşı çıxır. Bəli, o özü Rusiyadan uzaqlaşmaq istəyini inkar etməyə çalışır. Lakin Paşinyanın bu məsələ ilə bağlı dedikləri əhəmiyyətsizdir. Əhəmiyyətli olan Kremlin nəyə inanmasıdır. Və onlar dəfələrlə fərqli bir Ermənistan görmək istədiklərini bildiriblər, daha proqnozlaşdırıla bilən və sadiq olan bir Ermənistan. Nikol özü bunu çox yaxşı başa düşür. Məhz buna görə də Paşinyan bütün erməniləri Azərbaycanla sülhə səsləyir. Erməni mətbuatı onu da yazır ki, Rusiya Cənubi Qafqaza qayıdıb. Və o, İranla birlikdə burada yeni oyun qaydalarını müəyyən edəcək. Bu müharibə üçün yer yoxdur, Paşinyana da yer yoxdur.

**V.VƏLİLİ**

# Akademik Zərifə Əliyeva – nurlu ömrün qürurlu salnaməsi

*Azərbaycanın görkəmli alimi, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyeva zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatları, qazandığı nailiyyətləri, yaratdığı fundamental əsərləri ilə şöhrət qazanmış böyük ziyalı, imzasını əməlləri ilə əbədi olaraq dünyamıza həkk etmiş nurlu bir İNSANDIR. Tibb elminə əvəzsiz töhfələr vermiş Zərifə xanım Əliyeva çoxcəhətli elmi fəaliyyətinin nəticələri olaraq 150 əsərdə, o cümlədən 12 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.*

Zəngin mənəviyyata sahib əsl ziyalı kimi mənalı ömür yolu keçmiş, əhatəli elmi fəaliyyəti ilə ölkəmizdə tibb sahəsinin inkişafına əhəmiyyətli töhfələr vermiş alimin oftalmologiyanın aktual məsələlərinə dair uzunmüddətli araşdırmaları hər zaman maraqla qarşılanmış və yüksək qiymətə layiq görülmüşdür. Azərbaycanda oftalmologiya məktəbinin ilk tədqiqat mərkəzi olaraq ixtisaslaşdırılmış elmi tədqiqat laboratoriyası, məhz akademik Zərifə Əliyevanın təşəbbüsü ilə yaradılmışdır. Həkimlik etikasını bütün elmi və pedaqoji fəaliyyətində diqqət mərkəzində saxlayan Zərifə Əliyeva yüksəkixtisaslı kadrların hazırlanması işinə gərgin əmək sərf etmiş, gənc alimlərin və həkim-oftalmoloqların böyük bir nəslini formalaşdırmağa əməyi, elmi nailiyyətləri ilə müvəffəq olmuşdur. Ulu Öndər Heydər Əliyev Zərifə xanım Əliyeva haqqında xatirələrində yazırdı: "Deyirlər, xoşbəxtlik nisbi anlayışdır və dünyada tam xoşbəxt olan insan yoxdur. Amma Tanrı tərəfindən seçilmiş elə şəxslər də var ki, sağlığında insanların rəğbətini, sevgisini qazanan, bu dünyayla vidalaşandan sonra isə tarixdə özünə əbədi şərəfli ad qoyan xoşbəxt insanlardan olur. Elə o da öz adını tarixin səhifələrində əbədiləşdirən, xatirələrdə hər zaman hörmətlə anılan, saygı ilə yada salınan unudulmaz şəxsiyyətlərdən oldu. Çünki böyük Yaradan ona elə böyük ürək bəxş edib, qəlbinə elə parlaq bir nur çiləmişdi ki, onunla rastlaşan, ünsiyyətdə olan hər bir kəs ilk növbədə özündə ümid, təsəlli, inam, sakitlik tapar, könülləri xeyirxahlıq şəfəqinin şöləlləri ilə işıqlanardı".

Zərifə xanımın beynəlxalq aləmdə alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyeva hələ gəncliyinin ilk dövrlərindən ömrünü tibb elminə həsr etməyi qarşısına məqsəd qoyaraq 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Bu o dövr idi ki, Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda ona qarşı təsirli müalicə üsulları isə yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Onun bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Elmi tədqiqataların nəticəsi olaraq Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail oldu. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü.



*İradə Rizazadə, Binəqədi rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri, Tərəqqi medalı təltifçisi*

Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir.

Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür, onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbüssündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Yüksək keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva, Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Zərifə xanım haqqında belə deyir: "Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir."

Bildiyimiz kimi, Zərifə Əliyevanın anadan olmasının 100-cü ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncamı imzalamışdı. Sərəncama əsasən, 2023-cü ildə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə akademik Zərifə Əliyevanın 100 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər həyata keçirdi.

15 aprel Zərifə xanımın anım günüdür. Zərifə xanım Əliyeva ömrünün 62-ci baharında, 1985-ci il aprelin 15-də Moskva şəhərində dünyasını dəyişib. 1994-cü ildə Zərifə xanım Əliyevanın cənazəsi Bakıya gətirilərək Fəxri Xiyabanda dəfn olunmuşdur

Zərifə xanım Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi.

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2025-CÜ İL TARİXİNƏ MÜHASİBAT BALANSI.

| Bölmə, maddə №-si | | Hesabın №-si | Manatla |
|---|---|---|---|
| | **AKTİVLƏR** | | |
| **I** | **Uzunmüddətli aktivlər** | | |
| 11 | Torpaq, tikli və avadanlıq | 111-112+103 | 23132 |
| 19 | Sair uzunmüddətli aktivlər | 19X | 20654 |
| | Cəmi uzunmüddətli aktivlər | | 43786 |
| **2** | **Qısamüddətli aktivlər** | | |
| 21 | Qısamüddətli debitor borcları | 21X | 5 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 5 |
| | Cəmi qısamüddətli aktivlər | | 5 |
| | CƏMİ AKTİVLƏR | | 43791 |
| | **KAPİTAL VƏ ÖHDƏlİKLƏR** | | |
| **3** | **Kapital** | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapitalı | 301-302 | 89500 |
| 33 | Kapital ehtiyatları | 33X | 11215 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödınilməmiş zərər) | 34X-344 | (78885) |
| | Cəmi kapital | | 21830 |
| **5** | **Qısamüddətli öhdəliklər** | | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 52X | 21961 |
| | **Cəmi qısamüddətli öhdəliklər** | | 21961 |
| | **Cəmi öhdəliklər:** | | 21961 |
| | CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR: | | 43791 |

"ŞAMAXI SƏRNİŞİN" ATSC-nin 31 DEKABR 2025-CÜ İL TARİXİNƏ MALİYYƏ TƏSƏRRÜFAT FƏALİYYƏTİNİN NƏTİCƏSİ (MƏNFƏƏT VƏ ZƏRƏR)

| Sıra №- | Maddələr | Manatla |
|---|---|---|
| | Gəlirlər | |
| 1. | Avtonəqliyyat xidmətindən | 15310.00 |
| 2 | Sair əməliyyat gəliri | - |
| | Cəmi gəlir | 15310.00 |
| | Xərclər | |
| 1. | Əmək haqqı | 9600.00 |
| 2. | DSMF, İTS və işsizlik fonduna | 2352.00 |
| 3. | Vergi ödəmələri | 1120 |
| 4. | Amortizasiya xərcləri | 2084 |
| 5 | Sair xərclər | 1474.0 |
| 6 | İşcinin həyat sığortası | 91.0 |
| | Cəmi xərc: | 16721.0 |
| | Əsas fəaliyyətin mıticəsi -Ziyan | 1411. |
| | Ümumi nəticə -Ziyan | 1411.0 |

"Şamaxı Sərnişin" ATSC-nin idarə heyyətinin sədri: Nəhmətov M.Ə.

# Agent heç zaman öz missiyasından imtina edə bilməz

***Məlum fakt ondan ibarətdir ki, sovetlər birliyi qapalı bir rejim idi. Burada kiminsə müstəqil fikir söyləməsi, razılaşdırmadan addım atması və ya başına adamları toplayıb siyasi, ictimai təşkilat yaratması qeyri-mümkün idi. Belə xəyallara düşənlər beşikdəcə məhv edilirdilər. Çünki hakimiyyətin söykəndiyi bir ideologiya, həyata keçirdiyi bir siyasət vardı.***



Kommunist partiyası bütün sovetlər birliyi vətəndaşlarının arxalandığı yeganə siyasi təşkilat hesab olunurdu. Ancaq elə ki, sovetlərin sütunları laxlamağa başladı, bəzi şəxslər siyasi iddialarla çıxış etmək iddialarına düşdülər. Bu zaman sovet "KQB"si həmin iddialı şəxslərlə müəyyən razılaşmalar əsasında onlara müsbət rəy verdilər. Beləliklə, sovet respublikalarında, o cümlədən Azərbaycanda ötən əsrin 88-ci illərindən etibarən "KQB"-nin şinelindən çıxan insanlar üzə çıxmağa başladılar. Hansı ki, bu şəxslərin əksəriyyəti düz-əməlli biliyə, savada malik deyildilər. Lakin xüsusi proqram əsasında onlar insanların arasında nüfuz və hörmət sahiblərinə çevrildilər. Bir qədər sonra ittifaq daxilində sensasiya sayılan bir hadisə baş verdi- bir neçə nəfər toplaşaraq AXC adlı siyasi təşkilat yaratdılar. Təşkilatın sədri formal olaraq Əbülfəz Elçibəy olsa da əsas idarəedicilər "KQB" məktəbinin sanballı simalarında olan Müsavatın indiki başqanı İsa Qəmbər, vətənə xəyanət yolu tutduğu üçün həb s edilən AXCP sədri Əli Kərimli və digərləri oldu. Sonuncu şəxslər heç bir zaman qalmaqallı proseslərə qatılmır və özləri haqqında mənfi rəyin formalaşmasına imkan vermirdilər. Fikir verin, 1990-cı il yanvarın 20-də Bakı şəhərində sovet ordusu Azərbaycan xalqına qarşı dəhşətli vəhşiliklər törətdi, insanlar öldürüldü, küləvi həbslər həyata keçirildi, ancaq etiraz mitinqlərinin əsas təşkilatçıları olan İsa Qəmbər, Əli Kərimli və digərləri zərər görmədilər. 1990-cı il Yanvar qırğını zamanı baş verənlər İsa Qəmbərin "KQB"-nın gizli agenti olduğuna bir daha təsdiqlədi.

### "Onlar Azərbaycanda vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni edirdilər"

Meydan hərəkatının üzvlərindən olan Zərdüşt Əlizadə təsdiq edir ki, İsa Qəmbəri qoruyanlardan biri Yanvar qırğınının əsas təşkilatçılarından olan Yevgeni Primakov olub. Yanvar hadisələrindən öncə Primakov Əbülfəz Elçibəyi və İsa Qəmbəri qəbul edib və onlara müəyyən tapşırıqların verib. Azərbaycan SSR "KQB"-sinin keçmiş rəhbəri Vaqif Hüseynovun milli-azadlıq hərəkatının başlaması və tarixi ilə bağlı xatirələrində AXC-nin Moskvanın razılığı ilə yaradıldığını bildirmişdir. O dövrün hadisələrinin iştirakçısı olmuş Ayaz Mütəllibov Azərbaycan mətbuatına verdiyi açıqlamasında Vaqif Hüseynovun AXC ilə bağlı fikirlərinin əsaslı olduğunu söyləmişdir. A.Mütəllibov bildirmişdir ki, M. Qorbaçov yenidənqurması dövründə qeyri-formal siyasi təşkilatlar, bu dalğa üzərində isə keçmiş SSRİ-nin bir çox yerlərində, o cümlədən də Azərbaycanda Xalq Cəbhəsi yaradılmağa başlanmışdı: "Bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da Xalq Cəbhəsi o zamankı sovet DTK-sı tərəfindən ciddi nəzarətdə saxlanılırdı. Bundan başqa, Azərbaycan Xalq Cəbhəsinin liderlərinin çoxu "KQB" ilə birbaşa əməkdaşlıq edirdilər. İndi Xalq Cəbhəsinin bəzi liderlərinin bu təşkilatın Azərbaycandakı milli-azadlıq hərəkatı nəticəsində yarandığını deməsi məndə sadəcə olaraq gülüş doğurur. Çünki Sovet İttifaqında heç bir təşkilat, illah da qeyri-formal, yarımgizli təşkilat SSRİ "KQB"-sinin bilavasitə iştirakı və icazəsi olmadan yarada bilməzdi və bu adamlar yuxarıdan razılıq olmadan heç bir müstəqil addım ata bilməzdilər. Mən bunu Xalq Cəbhəsi liderlərinə də dəfələrlə demişdim ki, əgər ermənilər bizə qarşı artıq bir cəbhə açıblarsa, onda ikinci cəbhəni yaratmaq nəyə və kimə lazımdır, biz bu cəbhəni kimə qarşı yaradırıq. Mən Xalq Cəbhəsi liderlərinə təklif etdim ki, gəlin, ermənilərə qarşı vahid bir cəbhədə birləşək. Lakin Qarabağ məsələsi onları qətiyyən maraqlandırmırdı, onlar yalnız hakimiyyətə gəlmək ehtirası ilə alışıb yanırdılar. Onlar Azərbaycanda vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni edirdilər".

Məlumatlara görə, 20 yanvar faciəsindən bir gün öncə AXC-nin fəallarına divan tutulması müzakirə olunarkən, Viktor Polyaniçko İsa Qəmbər haqqında "İsa Kambar naş çelovek!" deyib və daha sonra onun qorunmasını təmin edib. Əslində Viktor Polyaniçkonun yaratdığı "Gənc alimlər klubu"nda "parlayan" İsa Qəmbərin xidmətləri qarşılığında qorunması gözlənilən idi. Azərbaycan xalqı 20 yanvar faciəsinin hüzünlü günlərini yaşadığı zaman İsa Qəmbər və Əli Kərimli müxtəlif qonaqlıqlarda kef çəkirdilər. Bir qədər sonra isə onlar meydan çıxıb, heç nə olmamış kimi siyasi bəyanatlarla çıxış etdilər, özlərinə reytinq qazandırmaq üçün pafoslu bəyanatlar səsləndirdilər.

### Vətən xainləri cəzalarını alacaqlar

O zaman Əli Kərimli və İsa Qəmbər "KQB"nin təlimatına uyğun olaraq ölkənin idarə edilməsini həyata keçirən əsas şəxslər idilər. Elçibəyin prezidentliyi formal xarakter daşıyırdı. Onlar Elçibəyi prezident olaraq qəbul etmirdilər, özləri istəklərinə uyğun qərarlar verir və addımlar atırdılar. İsa Qəmbər parlament sədrliyinin 5-ci ayında Müsavat adlı partiya yaratdığını elan etdi. Təbii ki, Müsavatın yaradılması səbəbsiz deyildi, "KQB" belə istəmişdi. Eyni siyasi, ideoloji məfkurəni bölüşdüklərini elan edən şəxslər bir-birinə necə müxalifətdə ola bilərlər? Deməli deyilənlər və yazılanlara əsaslıdır- İsa Qəmbər "KQB" agenti olub. Bu gün də öz vəzifəsini və ötən əsrin 88-ci ilində üzərinə götürdüyü öhdəliyi "ləyaqətlə" yerinə yetirir.

Vaqif Hüseynovun, Zərdüşt Əlizadənin və digərlərinin fikirlərinə, eləcə də ortada olan digər faktlara əsasən demək olar ki, bu gün İsa Qəmbərin və Əli Kərimlinin Rusiya maraqlarına uyğun fəaliyyət yolu tutmaları gözləniləndir. Çünki agent heç zaman öz missiyasından imtina edə bilməz. Yəni agentlər ömürlərinin sonuna qədər üzərlərinə götürdükləri vəzifələri yerinə yetirməyə məhkumdurlar. Ona görə də, İsa Qəmbər, Əli Kərimli, Ramiz Mehdiyev və digərləri heç bir bəhanə gətirmədən, süründürməçiliyə yol vermədən Rusiya xüsusi xidmət orqanlarından gələn sifarişləri yerinə yetirirlər. Lakin onlar artıq ifşa olunub və hər iki satqın və xəyanətkar həbs ediliblər. Onların istintaqı gedir. Yəqin ki, çox yaxın zamanlarda işə məhkəmədə baxılacaq və vətən xainləri ən ağır cəzalarını alacaqlar.

***İLHAM ƏLİYEV***

---

# Yaşıllığa sitəm v(b)loqu

***Müasir texnologiya, internet resursları imkan verir ki, hər kəs sözünü desin, hansı mədəniyyətə, səviyyəyə, biliyə malik olduğunu milyonlarla insanla paylaşa bilsin. Bunun müsbət tərəfi ondan ibarətdir ki, yaxşılar paylaşılır, çox insanın görməsi, maariflənməsi, öyrənməsi ilə nəticələnir. Pis tərəfi isə odur ki, çoxsaylı insan etik davranış qaydalarını hələ öyrənməli olduğunu, mədəni səviyyəyə yüksəlmək, biliyini, təhsilini artırmaq ehtiyacını da milyonlarla insana təqdim edir.***

İki-üç gün əvvəl Dənizkənarı Milli Parkda yaşıllığa sitəm edənlərin içərisində hətta blogerlərin də olduğu xoşagəlməz hadisəyə münasibət bildirmək istəyirəm, çünki hadisə kiçik hadisə deyil, ictimai qınaq istəyir. Blogger hər hansı bir sahə üzrə bilik və bacarığını, təcrübələrini, səyahət gündəliyini insanlarla bölüşən şəxsdir. Məqsəd b(v)loqlar paylaşmaqla gündəm yaratmaq, insanlara faydalı olmaqdır. Onları təbiət gözəllikləri, texnoloji yeniliklər, səyahətlər, moda və sair ilə bağlı bölüşdükləri videolarla, yazdıqları yazı ilə məlumatlandırmaqdır.

Təəssüf ki, çox şahidi oluruq ki, özünü cəmiyyətə bloger kimi tanıdan, lakin öz fəaliyyəti ilə bağlı məlumatı, hətta etik davranış qaydaları haqqında təsəvvürü olmayan şəxslər var. Məsələn, indi çoxsaylı gənci bahalı həyata- "parlaqlıq", "kübarlıq", "zənginlik" ehtiva edən, yaxşı yaşayışa çağıran, ən bahalı ticarət mərkəzlərindən, tanınmış markalardan geyinməyə səsləyən, ən bahalı kafe-restoranlarda yemək-içmək kimi videolarla aşıq edən blogerlər az deyil. Bəzən məlumatlandırma, maarifləndirmə dərəcəsini aşan, bəzən ümumiyyətlə, uyğun gəlməyən, bəzənsə bloger fəaliyyəti ilə əsla uzlaşmayan belə videolar blogerlik fəaliyyətidirmi?

Məsələn, dənizkənarı parkda yaşıllığa sitəm etməklə vloq yaratmaq da heç bir halda blogerlik fəaliyyəti ola bilməz. Sən get gözəllik salonuna, bəzən-düzən və oradan üz tut dənizkənarı parka ki, güllərlə çoxsaylı şəkillər çəkdirib vlog paylşacam, olar, əlbəttə. Lakin güllərin içərisində deyil, kənardan, güllərin göründüyü bir yerdən. Gül sahəsinə girmək, oranı ayaqlamaq, o tərəfə çevrilmək, bu yana dönmək, əyləşmək, uzanmaqla müxtəlif pozalarda şəkil çəkdirmək ki, mən bunu səhifəmdə paylaşacam, bu, heç bir etik davranışa uyğun deyil. İkincisi, güllər də sənin kimi canlıdır, onlara bu sitəmi etmək çoxsaylı canlını məhv etmək deməkdir. Üçüncüsü, o güllərin hər biri üçün bir dəfə əylib onları əkən insanlar var, bu hərəkətlər onların əməyinə çox böyük hörmətsizlikdir.

Bu hadisənin paytaxtda baş verməsi daha dözülməz haldır. Çünki hadisəni törədənlər arasında yeri gələndə rayon-kəndləri bəyənmənlərlə, oradakı insanlara "kəndçi" deyib sayğısızlıq nümayiş etdirənlərlə də qarşılaşmışıq. Paytaxtın mərkəzində yüksək şəhərli mədəniyyəti sergisi budur?

Kiminsə səhifəsində video paylaşması məqsədilə təbiətə, insanların istirahəti, zövqü naminə salınmış yaşıllıqlardan onları təhqir edərək vloq yaratmaq istəyinə düşməsi belə günahdır.

Deyirəm bəlkə bizlər də günahkarıq? Çünki son vaxtlar blogerlərdən yuxarı başa dəvət edirk.etdiklərimiz var. Hətta qonağı olduğum televiziyalardan birində xəbər saatında baş verən hadisə barədə blogerdən məlumat alınması ilə də qarşılaşmışdım. O vaxt düşünmüşdüm ki, bu jurnalistlər haradadır ki, televiziya hadisə barədə xəbəri blogerdən alır? Həmkarlarımdan biri bir tədbirdə iştirak etmişdi. Orada da blogerlər qarşıdakı, jurnalistlər isə arxa sıralarda əyləşdirilmişdi. Ona görə, geyirəm bəlkə, bizdə də bir qədər günah var ki, kimisə kiminsə yerinə qoyuruq və sonra görürük ki, vay, yerləri səhv salmışıq. İndi yenə deyəcəksiniz ki, köhnə fikirliyəm, geridə qalmışam, indi internet əsridir. Yaxşı, bunu deyənlər müasir fikirli olsunlar və blogerlərə məktəblərdə müəllim, xəstəxanalarda həkim, uşaq bağçalarında tərbiyəçi kimi fəaliyyətlərlə məşğul olması üçün qapıları açıq elan etsinlər. Maraqlıdır ey, niyə məhz jurnalistika? Niyə yoldan keçən də, yolçuluq ərzində yorulan da nəfəsini jurnalistikada dərməlidir? Bura məgər hər hansı bir dayanacaqdırmı, istirahət mərkəzidirmi?



Hə, sual verən ola bilər ki, jurnalistikanı niyə söhbətə qatdın, belə cavab verim: ona görə jurnalistikadan söhbət açdım ki, həm yerləri səhv salmayaq, həm də onu biləki, etik davranış qaydaları jurnalistika fakültələrində dərs kimi keçilir. Yəni, jurnalistlər onu sonradan yox, təhsil dövründə əxz edirlər. Demək istədiyim odur ki, birinci özümüzə hörmət hisssini formalaşdıraq, sonra harada necə hərəkət edəcəyimizi, nə danışa biləcəyimizi dərk edək, daha sonra edəcəyimiz hərəkətə və yaxud hansı sənətlə məşğul olacağımıza qərar verək. Məsləhət də görürəm ki, elə hərəkətlər edək ki, çəkdiyimiz videoları səhifəmizdən silmək məcburiyyətində, məsuliyyətində, qorxusunda qalmayaq.

***Mətanət Məmmədova***

SON SƏHİFƏ
SƏS
17 aprel
2026-cı il

# Qanunsuz nikahların artması hansı hüquqi risklər yaradır?




***Azərbaycanda qohum evliliklərinə qoyulan qanuni qadağaya baxmayaraq, bəzi bölgələrdə bu cür nikahların gizli şəkildə davam etdiyi iddiaları gündəmdə qalmaqdadır. Rəsmi olaraq yaxın qohumlar arasında nikahların qeydiyyatına icazə verilməsə də, sosial şəbəkələrdə və mediada əksini tapan hallar cəmiyyətdə müzakirələr doğurur. Hüquqşünaslar bu qadağanın gözlənilən nəticələri ilə bağlı fərqli yanaşmalar ortaya qoyurlar. Bəs bu qadağa real həyatda nə qədər işləyir və problemin kökündə hansı amillər dayanır?***



## VƏKİL AÇIQLADI

Məsələ ilə bağlı vəkil Elnur Məmmədov SİA-ya açıqlamasında bildirib ki, əslində biz buna qadağa deyirik, amma bu tam qadağa sayılmamalıdır: "Qadağa o deməkdir ki, şəxs bir hərəkəti etsin və həmin qəhərəkət qanunla qadağan edildiyi üçün cəzalandırılsın. Amma qohum evlilikləri ilə bağlı cəza nəzərdə tutulmadığı üçün bunu tam qadağan edilmiş hərəkət adlandırmaq düzgün deyildir. Bu qadağa həmin nikahların yalnız rəsmiləşdirilməsi ilə bağlıdır. Bundan kənar heç bir qadağa yoxdur. Bilirik ki, qanunvericilikdə dəyişiklik olana qədər də ölkəmizdə çoxlu sayda nikahsız ailələr (vətəndaş nikahı) mövcud idi və bu dəyişiklik hələ müəyyən dövrlərdə nikahsız ailələrin sayını bir qədər də artıracaq. Doğrudur, qanun artıq yaxun qohumların evliliyini bir qədər azaldıb. O insanlar ki evliliyin rəsmiləşdirilməsini istəyirlər, onlar qohum evliliyindən imtina edirlər.

Digərləri isə hələ də nikahdan kənar də da olsa belə evlilikdə problem görmürlər. Əslində insanların bunu qəbul etməsi müəyyən qədər vaxt aparacaq. Belə nikahların gələcək problemləri əmlakla, alimentlə, valideyinlik hüququ ilə bağlıdır. Məsələn, əgər nikahdankənar ailə dağılırsa, təbii ki hüquqi formada boşanma olmayacaq, o zaman tərəflər arasında əmlak bölgüsü aparılmayacaq. Belə nikahlarda hər dəfə uşaq dünyaya gələrkən gərək ata hər dəfə ayrıca olaraq uşağa valideyinlik versin. Əslində bu cür ailə qurulması ilə bağlı cəza tədbiri də tam nəticə verməyəcək. Çünki əgər şəxsi buna görə cərimə etsələr, o şəxs cəriməni pdəyib yenə də ailə kimi yaşayacaq. Bu məsələdə ciddi maarifləndirmə işinin aparılmasına, bu cür nikahların fəsadlarının genefondumuza hansı dərəcədə zərər verməsini insanları inandırmağa zəruri ehtiyac vardır".

***Arzu Qurbanlı***

# Arda Gülər 35-ci saniyədə qol vurdu, "Real"ın tarixinə düşdü!



***Madrid "Real"ının futbolçusu Arda Güler Madrid klubunun tarixinə düşüb. Türkiyəli gənc futbolçu "Real"ın UEFA Çempionlar Liqasının 1/4 final mərhələsinin cavab qarşılaşmasında səfərdə "Bavariya" ilə qarşılaşması zamanı rekorda imza atıb.***

A.Gülər matçın 35-ci saniyəsində "Bavariya"nın qapıçısı Manuel Noyerin ötürməsi zamanı onun kobud səhvindən sonra topu ələ keçirib və uzaq məsafədən boş qapını dəqiq nişan alıb. "NTV Spor"un məlumatına görə, türkiyəli yarımmüdafiəçi bununla "Real"ın Çempionlar Liqası tarixində vurduğu ən sürətli qolun müəllifi olub. O, həm də "Real"la Çempionlar Liqasında ilk qolunu vurub. Matçın 29-cu dəqiqəsində isə gənc futbolçu cərimə zərbəsindən gözəl qol vuraraq komandasını yenidən hesabda önə çıxarıb.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Azərbaycanın süni intellektlə hazırlanan ilk tarixi sənədli filmi - "Uzun Həsən"



AzTV "Tariximizlə qürur duyuruq" adlı yeni silsilə filmlər layihəsinə start verib. Layihənin ilk ekran işi "Sultan Həsən Bahadur" adlanıb. Film Ağqoyunlu dövlətinin görkəmli hökmdarı, tarixə Uzun Həsən kimi düşən qüdrətli sərkərdənin hakimiyyət dövrünü, həyat yolunu və hərbi uğurlarını əhatə edir. Eyni zamanda ekran əsərində onun anası Sara Xatunun dövrünün nüfuzlu dövlət xadimi kimi fəaliyyəti və siyasi müdrikliyi də xüsusi diqqət mərkəzində təqdim olunur.

"Tariximizlə qürur duyuruq" layihəsi Azərbaycan efir məkanında bir yeniliyə də imza atıb. Belə ki, "Sultan Həsən Bahadur" filmi bədii təsvir baxımından 100 faiz süni zəka texnologiyaları vasitəsilə hazırlanmış ilk tarixi ekran əsəridir. Filmin ssenari müəllifləri Sərvər Bayramov, Mahir Qəribov və Sevda Hüseyndir. Layihənin məsləhətçisi isə tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədovdur.

Qeyd edək ki, layihənin əsas məqsədi Azərbaycan tarixinin mühüm şəxsiyyətlərini və şanlı keçmişini müasir təqdimat üslubunda geniş auditoriyaya çatdırmaqdır.


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**